**"Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində ölkənin ilbəil artan neft və qaz gəlirlərini qeyri-neft sektoruna yönəltməklə iqtisadiyyatın tarazlı inkişafına nail olmaq, gəlirlərin səmərəli idarə olunmasını və istifadəsini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya" təsdiq edilsin (əlavə olunur).
2. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 sentyabr 2004-cü il
№ 128

Azərbaycan Respublikası Prezidentinin
27 sentyabr 2004-cü il tarixli 128 №-li Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli

## S T R A T E G İ Y A

## GİRİŞ

Azərbaycan Respublikasında həyata keçirilən islahatlar nəticəsində son illər ölkədə makroiqtisadi və maliyyə sabitliyi əldə edilmiş, iqtisadiyyatda struktur dəyişiklikləri dərinləşmiş, sahibkarlığın inkişafı üçün münbit şərait yaranmışdır. Bütün istiqamətlərdə ardıcıl aparılan işlər ölkənin sosial-iqtisadi inkişafına, o cümlədən əhalinin rifah halının yaxşılaşmasına güclü təkan vermişdir.

1994-cü ildən başlayaraq həyata keçirilən Milli Neft Strategiyasının reallaşması sayəsində Azərbaycan Respublikası neft və qaz yataqlarının inkişafı istiqamətində keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, ölkə iqtisadiyyatına külli miqdarda investisiya cəlb edilmiş, Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Azərbaycandan keçməklə dünya bazarlarına nəqli sahəsində nailiyyətlər əldə edilmiş, 1999-cu ildən etibarən "Əsrin müqaviləsi" üzrə mənfəət neftinin ixracı nəticəsində ölkəyə xarici valyutanın davamlı daxil olması təmin edilmişdir.

Azərbaycanda karbohidrogen ehtiyatlarının geniş miqyaslı istismarı ilə əlaqədar olaraq, bir tərəfdən, neft və qaz gəlirlərinin 2008-ci ildən başlayaraq kəskin artması və digər tərəfdən, mövcud neft-qaz ehtiyatlarının nisbətən qısa müddətdə tükənmə ehtimalı, böyük həcmdə xarici valyutanın daxil olması şəraitində ölkədə bərqərar olan makroiqtisadi sabitliyin qorunması, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün saxlanması ilə yanaşı, onlardan indiki nəslin rifahının yüksəldilməsi üçün istifadə edilməsi, qeyri-neft sektorunun inkişafının stimullaşdırılması və iqtisadiyyatın tarazlı inkişafının təmin edilməsi neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiyanın qəbul edilməsi zərurətini gündəmə gətirmişdir.

Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya 2005-2025-ci illəri əhatə edir və bu müddət ərzində həmin gəlirlərdən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirir. Bu strategiya aşağıda göstərilən mənbələrə uyğun olaraq neftin və qazın satışından Azərbaycan Respublikasının Dövlət Neft Fondunda və dövlət büdcə-sində toplanan gəlirlərin idarə edilməsini nəzərdə tutur.

### 1. Neft və qaz gəlirlərinin uzunmüddətli dövr üçün proqnozlaşdırılması

Uzunmüddətli dövr üçün Azərbaycan Respublikasının neft və qaz gəlirlərinin həcmi ölkənin təsdiq olunmuş neft və qaz ehtiyatlarının ehtimal olunan qiymətləri əsasında müəyyən edilir.

Neft və qaz ehtiyatlarının həcmi Azəri-Çıraq-Günəşli, Şahdəniz yataqlarından, hasilatın pay bölgüsü sazişlərində nəzərdə tutulmuş digər yataqlardan, eləcə də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və